# Rayon (şəhər) təhsil şöbələrinə (idarələrinə), Təhsil Nazirliyinin birbaşa tabeliyində olan ümumtəhsil müəssisələrinə

Azərbaycan Respublikasının Təhsil, Fövqəladə Hallar, Gənclər və İdman nazirliklərinin birgə razılaşmasına əsasən, Fövqəladə Hallar Nazirliyinin 11 aprel 2017-ci il tarixli 034 nömrəli əmri ilə uşaq və gənclər arasında 3 may 2017-ci il tarixdən 2 iyul 2017-ci il tarixədək "Gənc xilasedici və yanğınsöndürən" Respublika yarışı keçirilir.

Yarışın əsasnaməsi əlavələrlə birlikdə Təhsil Nazirliyinin www.edu.gov.az saytında verilmişdir.

Yarışın təşkili və keçirilməsi ilə bağlı Fövqəladə Hallar Nazirliyinin regional mərkəzləri ilə əlaqə saxlamaq, qalib komandanızın müsabiqənin zona mərhələsində iştirakını təmin etmək, zona mərhələsində iştirak etmək hüququ qazanmış komandaları vahid formada geyim, idman dəstləri, nəqliyyatla təmin etmək, eyni zamanda ezam olunan komandanın rəhbərinin ezamiyyə xərclərini vaxtında ödəmək, Respublika turunda iştirak etmək hüququ qazanmış komanda haqqında məlumatları məktubla Təhsil Nazirliyinə bildirmək xahiş olunur.

***Firudin Qurbanov,***

***təhsil nazirinin müavini***

***25 aprel 2017-ci il***

***№ 03-07-247/15***

---

"Gənc xilasedici və yanğınsöndürən" yarışının keçirilməsi haqqında Əsasnamə

---